TURAN-SAM(TURAN-CSR)
YIL: 2012 * CİLT: 4 * SAYI: 15 * YAZ, 2012
YEAR: 2012 * VOLUME: 4 * ISSUE: 15 * SUMMER, 2012
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
(JOURNAL OF TURAN CENTER FOR STRATEGICAL RESEARCHES)
www.turansam.org

(3)

# ALBAN ETNOSU KONUSUNA DAİR

**Rüxsarə QULIYEVA Bəxtiyar qızı**

## ÖZET

Güney Kafkasyada "Albaniya" adlı ülkenin adını ilk kez yunan coğrafyacısı Strabon hatırlamıştır. Bu ülkede yaşayan albanlar ise ilk kez olarak kaynaklarda m.ö. IV yüzyılda Büyük İskenderle bağlı olaylarla ilgili, II yüzyıl alimi Flavi Arrian tarafından hatırlatılır. Bahsedilen tarihde "alban" problemine diğer antik tarihçiler Qay Plini Sekund ve Qay Yuli Solin de dokunmuştur. Adı söylenen araştırmacıların bilgileri artık Büyük İskender zamanında Alban devletinin var olması düşüncesini doğurur. Arkeolojik buluntular da bunu düşünmeye esas verir. Öyle ki, arkeolog İ. Babayev arkeolojik və numizmatik buluntulara dayanarak m.ö. IV yüzyılın sonu – III yüzyılda Alban devletinin kurulduğunu kayt ediyordu.

Eski kaynaklarda "alban" etnonimi hem Albaniya arazisinde yaşayan toplulukların genel adı, hem de burada yaşayan topluluklardan biri gibi hatırlanır. Tarihi gerçektirki, Albaniyada çeşitli milletler yaşamıştır. Bu bakımdan ülke ahalisinin yalnız alban tayfasından ibaret olmasını demek yanlış olurdu. Antik yunan - roma tarihçilerinin bilgileri albanların Kura nehrinin Hazar denizine dökülen bölgesine kadar Hazar denizi boyunca, Kura havzasını kaplayan Kafkas dağlarında ve Kura nehrinin orta ve aşağı akarı boyunca, özellikle sol sahili boyunca yaşadıklarını düşünmeye esas verir. İlimde, "alban" və "Albaniya" sözünün manasını latin menşeli "albus" (dağlık ülke) ve kelt dilindeki alb (dağ) sözüne götüren fikrlerle beraber, Alban nehri, Albana şehri ve Alban denizi ile alakalandıran fikrler de mevcutdur.

Alban etnoniminin etnik kökü də uzun süren tartışmaların konusu olmuştur. Tarih debiyatında albanların ya İran menşeli, ya da Kafkas menşeli olması fikri geniş yayılmışdır. Ama tarihi kaynaklarda Albanların İran menşəli ve ya Kafkas menşeli olmaları hakkında bilgi yoktur. Ne İran menşeli, ne de Kafkas menşeli halklar içerisinde albanların adını taşıyan topluma rastlanmamıştır. Bu adı taşıyan toplumlar yalnız Türk halkları: Kazakların, Kırgızların, Özbeklerin ve Türkmenlerin içerisinde XIX yüzyılda kayıta alınmıştır. Fikrimizce bu delil alban etnoniminin Türk menşeli olmasını söylemeye esas veren ve tartışmalara son koyan oldukça tutarlı delildir.

**Anahtar Kelimeler**: Alban, Antik, Kafkasya, Kura Nehri, Strabon, Türk.

## (ON THE QUESTION OF AN ALBANIAN ETHNOS)

## ABSTRACT

About the state of Albania in the South Caucasus was first mentioned in the book of Strabo. For the first time Albanians as the name representatives of the Albanian population in the source are mentioned in connection with the events the last third of the IV. B.C authors II. A.D. Flavy Arrian. In the period of Alexander the Great a question "Alban" have concerned as well other antique authors Guy Pliny Sekund and Guy Juli Solin. The information received from Guy Plini Sekunda, Flavi Arrian and Guy Juli Solin confirms existence of the state Albania at the time of

Alexander the Great. In an ancient sources ethnonym "Alban" had been used and as the name of all population of Albania, and the name of a separate tribe. Generalizing messages of antique authors, it is possible to draw a conclusion: Albanians lived in territory of coast of Caspian sea to a place of a confluence of the Kura in it, in the Caucasian mountains which surrounded a river basin of the Kura, on average and its bottom current, especially on the left coast. About an origin of the name "Albania" in the scientific literature there are various opinions. Some researchers consider that this name of a Latin origin with value "the Country of mountains". The authors who identify the river Alazan with the river of Alban which mentioned by Plini consider that ethnonym Alban and the name of Albania formed from the name of river Alban.

The origin ethnonym "Alban" long time was a discussion theme. In the historical literature widespread opinions that not only Albanians but also all population of Albania, are Caucasian speaking or Iranian speaking. The so-called ethnos "Alban" meet among neither the people Caucasian nor Iranian origin. On the contrary, carrying this name found among the Turkic peoples. In our opinion this is enough authentic fact to stop discussion and to assume Alban Turkish origin.

**Keywords:** Albania, Ancient, Caucasia, Kura, Strabon, Turks.

## GİRİŞ

Tarixşünaslıqda çox böyük maraq doğuran problemlərdən biri də Azərbaycan Albaniyası əhalisinin tərkibi ilə bağlı məsələdir. Dünyanın bir çox ölkələri kimi Azərbaycan da tarixən çox millətli bir ölkə olmuşdur. Burada qədim dövrlərdən başlayaraqtürkmənşəli və qafqazmənşəli xalqlar yanaşı və birgə yaşamışdılar. Məlumdur ki, Azərbaycan Albaniyasının sərhədləri daxilində yaşayan əhali, xüsusən də Strabonun qeyd etdiyi 26 tayfa haqqında tarix elmində müxtəlif fikirlər mövcuddur. Təqdim edilən məqalədə qədim mənbələr əsasında bu tayfalardan biri olan albanlardan bəhs ediləcək. Onların yaşadığı ərazini, etnik xüsusiyyətlərini və digər problemləri araşdırmağa çalışacayıq.

## MƏTİN

Cənubi Qafqazda "Albaniya" adlı ölkənin adını ilk dəfə yunan coğrafiyaçısı Strabon (e.ə.65 - b.e.25) çəkmişdir [XI, 1, 5]. Bu müəllif e. ə. yaşamış bir sıra alimlərin fikrinə əsaslanmışdır. Sonrakı antik müəlliflər də ölkəni bu adla tanımışlar. Bu ölkədə yaşayan albanlar isə ilk dəfə olaraq mənbələrdə e. ə. IV əsr hadisələri ilə bağlı, II əsr müəllifi Flavi Arrian (təxminən e. 90/95 – 75 – ci illəri) tərəfindən xatırladılır. Müəllif, e.ə. 331 – ci ildə Makedoniya və Əhəməni imperiyası arasında baş vermiş Qavqamela döyüşünü təsvir edərkən albanların da adını çəkir. Arrian Əhəməni hökmdarı III Daranın ordusu haqqında məlumat verərkən yazır: ".... Sağ cinahda Kelesirden və İkiçayarasından olan əsgərlər, həmçinin midiyalılar, onların arxasınca parfiyalılar və saklar, sonra tapurlar və hirkanlar, daha sonra isə albanlar və sakesinlər dayanmışdılar...." [2, 77]. Arrianın bu məlumatına münasibət bildirən V. V. Bartold Qavqamela döyüşündə albanların Albaniyanın sakinləri kimi xatırlandığını bildirir [14, 9]. Bu fakta əsaslanan müəllif albanların Midiyaya tabe olması fikrinə

qarşı çıxaraq yazır: ".... albanların Midiyaya tabe olması fikrinə gəlmək üçün kifayət qədər material yoxdur. Mənim fikrimcə tabe olmayıb. Belə ki, tez – tez olur ki, qonşu xalqlar döyüşlərdə muzdlu döyüşçülər kimi iştirak edirlər. Bu o demək deyil ki, xalq daima İran hakimiyyətinə tabe olub. Çox ehtimal ki, burada da belə olub" [14, 10]. Göründüyü kimi V.V. Batrold Qavqamela döyüşündə albanların muzdlu döyüşçü kimi iştirak etməsi ehtimalını irəli sürür. Müəllifin bu fikrindən belə nəticə hasil olunur ki, artıq bəhs edilən dövrdə Alban dövləti mövcud olmuşdur. Qeyd edək ki, albanları Qavqamela döyüşцndə Arriandan başqa heç bir antik müəllif xatırlamır. Arrianın bu məlumatı, yəni alban qoşunlarının Əhəməni ordusunun mərkəzində, Daranın yanında dayanması alban qoşunlarının üstün vəziyyətə malik olmasını düşünməyə əsas verir.Qavqamela döyüşündə iştirak edən alban qoşunlarının sayını bilmək də maraqlı olardı. Amma təəssüf ki, Arrian bununla bağlı heç bir rəqəm qeyd etmir. Daha bir maraqlı məqam ondan ibarətdir ki, antik müəllif buməlumatları İsgəndərin yürüşlərinin iştirakçısı olan Aristobuldan götürdüyünü qeyd edir. Bu da onun məlumatlarının mötəbərliyinə inamı artırır. AlbanlarınAristobula məlum olmasını Strabonunməlumatları da təsdiq edir [XI, 7, 3]. Bu mənbə həmçinin alabnalrı ən azından e.ə. III əsrdə yaşamış iki müəllifin-Patrokl və Eratosfenin tanımasını da deməyə əsas verir [XI, 6, 1; XI, 7, 1; XI, 7, 3].

Makedoniyalı İsgəndərin dövründə "Alban" məsələsinə digər antik müəlliflər də toxunur. Bu müəlliflərdən olan Qay Plini Sekund (23 – 79) yazır: "Böyük Aleksandrın Hindistan yürüşü ərəfəsində alban çarı ona qeyri – adi böyüklükdə bir it bağışladı" [5, 189]. Bu məlumata Qay Yuli Solinin (e. III əsrinin I yarısı) əsərində də rast gəlinir [5, 277]. Qay Plini Sekunddan (23 - 79), Flavi Arriandan (95 - 175) və Qay Yuli Solindəн (III əsrin I yarısı) gətirilən bu məlumatlar artıq Makedoniyalı İsgəndərin zamanında Alban dövlətinin mövcud olması təsəvvürünü yaradır. Amma təəssüf ki, bu faktın təsdiqlənməsi üçün kifayət qədər material yoxdur. Həm də adını çəkdiyimiz antik müəlliflərin heç biri "alban dövləti"nin adını çəkmir. Sadəcə "albanlar" və "alban çarı" ifadəsini işlədirlər. Bu hər hansı bir tayfa haqqında məlumat da ola bilərdi. Biz bilmirik ki, albanlar həmin dövrdə ayrıca bir tayfa, yaxud tayfa ittifaqı olublar ya yox. Amma gətirilən bu parçalardan çıxan əsas nəticə ondan ibarətdir ki, artıq e.ə. IV əsrin sonunda albanlar mövcud idi və Qavqamela döyüşündə III Daranın ordusunda iştirakı onların siyasi əhəmiyyətinin mühüm olmasına dəlalət edir. Qeyd edək ki, Makedoniyalı İsgəndər zamanında albanların harada yaşamaları ilə bağlı antik mənbələrdə, ən azından adını çəkdiyimiz müəlliflərdə məlumat yoxdur. Yazılı mənbələrdən fərqli olaraq arxeoloji materiallar bəhs edilən dövrdə Alban dövlətinin olmasını düşünməyə əsas verir. Belə ki, arxeoloqİ. Babayev arxeoloji və numizimatik materiallara istinad edərək e.ə. IV əsrin sonu–III əsrdə Alban dövlətinin yarandığını qeyd edirdi [13, 51].

Strabon birinci müəllifdir ki, albanların adını çəkir və "Coğrafiya" əsərində onlara ayrıca bir fəsil ayırır. Patrokla istinad edən qədim coğrafiyaşünas məlumat verir ki, "Xəzər dənizinin Midiya dağlarına....toxunduğu yerdə....dənizdən başlayaraq zirvəyə qədər dağın yamacında böyük olmayan bir ərazidə albanların və ermənilərin bir hissəsi, amma böyük hissəsində qellər, kadusilər, amardlar, vitlər və anariaklar məskunlaşıblar" [XI, 7, 1]. Strabon albanların məskunlaşdığı yerlə bağlı başqa bir yerdə yazır: " Onlar (albanlar) iberlərlə Xəzər dənizi arasında yaşayırlar; (albanların yaşadığı ərazi) şərqdə dənizə bitişir, qərbdə isə iberlərlə həmsərhəddirlər. Qalan

tərəflərə gəldikdə isə, şimalda Qafqaz dağları ilə əhatələnir. (Bu dağlar vadilər üzərində ucalır və dənizə yaxın olanları Keravniya dağları adlanır)" [XI, 4, 1]. Bu parçadan məlum olur ki, albanlar qərbdə iberlər, şərqdə Xəzər dənizi, şimalda Qafqaz dağları və cənubda Ermənistanla sərhəd olan ərazidə yaşayırdılar. Eyni məlumata Plinidə də rast gəlinir. O, savromat tayfalarından cənubda yaşayan xalqları sadalayarkən udinlərin və albanların da adını çəkir: "Boğazın qurtaracağında skif tayfaları udinlər yaşayır, onların ardınca sahildə rəvayətə görə Yasondan törəyən albanlar yaşayır və dəniz onların qarşısında Alban adlanır. Bu tayfa Qafqaz dağları boyunca....Ermənistan və İberiya arasında sərhəd olan Kür çayına qədər olan ərazidə məskundular" [5, 183 - 184]. Bu parçadan aydın olur ki, albanlar təkcə dağda deyil, eləcə də Xəzər dənizi sahilində yaşayırdılar və cənubda sərhəd Kür çayına qədər gəlib çatırdı. Digər yerdə Plini yazır ki, "Kür çayından (başlayaraq) bütün düzənlikdə alban tayfaları, sonra isə iberlər məskunlaşıblar; onları birincilərdən Qafqaz dağlarından başlayıb Kür (çayına) tökülən Okazan (Alazan – Red.) çayı ayırır" [5, 181]. Plininin məlumatı belə düşünməyə əsas verir ki, albanlar Alazan çayından şərqdə yaşamışdılar. Kür düzənliyi isə onların başlıca məskunlaşdıqları ərazi idi. Albanların yaşadıqları ərazi haqqında Plutarxda da məlumata rast gəlinir.

Antik müəllif Pompeyin Parfiya çarı VI Mitridatı təqib etməsi ilə bağlı yazırdı: "Sonra Pompey Afranini Ermənistanın müdafiəsi üçün qoyub, özü isə başqa çıxış yolu görməyib Qafqaz xalqlarının yaşadığı ərazidən Mitridatı təqib etməyə getdi. Bu tayfalar (Qafqaz tayfaları– Red.) içərisində ən çoxsaylısı albanlar və iberlər idi; iberlərin ərazisi Mosx dağlarına və Evksin Pontuna qədər uzanırdı, albanlar isə Şərqə doğru Xəzər dənizinə qədər olan (ərazidə) yaşayırdılar" [4, 491]. Antik müəlliflərin məlumatlarını ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, albanlar Kür çayının Xəzər dənizinə tökülən hissəsinə qədər Xəzər dənizi boyunca, Kür hövzəsini əhatələyən Qafqaz dağlarında və Kür çayının orta və aşağı axarı boyunca, xüsusən sol sahili boyunca yaşayırdılar. Kür çayının sağ sahilində Kaspiana yerləşirdi ki, bu ərazi də Strabonun məlumatına görə Albaniyaya daxil idi ("Kaspiana da albanların ərazisinə daxil idi" [ XI, 4, 5].)

"Alban" etnonimi Albaniya ərazisində yaşayan tayfaların ümumi adı idi, yoxsa burada yaşayan tayfalardan biri? Bu problem də tarix ədəbiyyatında mübahisə doğuran məsələlərdən biri olmuşdur. Qədim qaynaqlarda "alban" etnonimi hər iki mənada əks olunmuşdur. Antik mənbələrdə alban etnoniminə ümumi ad altında tez – tez rast gəlinir. Belə məlumatlara aşağıdakıları misal gətirə bilərik: "Qney Pompey....iberlər və albanlarla döyüşdə qələbə çaldı...." [5, 50 -51], "Müasir müəlliflər....Qafqaz xalqları, məsələn albanlar və iberlər haqqında daha yaxşı danışa bilərlər" [Strab. II, 5, 12 ], "albanların ərazisinə Kaspiana da aiddir...." [Strab. XI, 4, 5], "Albanlar maldarlığa çox meyillidirlər" [Strab. XI, 4, 1], "....sağ cinahda....albanlar və sakesinlər dayanmışdılar" [2, 22], "....Kür çayından yuxarıda yaşayan albanlar...." [4, 611] , "Onların ( albanların ) 26 dili var...." [Strab. XI, 4, 6]. Gətirilən bu parçalarda "alban" etnonimi bütün Albaniya əhalisinin ümumi adı kimi işlədilir. Qeyd edək ki, "alban" etnonimi ümumi ad altında yerli alban mənbələrində də işlədilir [Moisey Kalan. I, 8; II, 49; 18, 99]

Mənbələrdə konkret alban tayfaları haqqında da məlumat var. Bu adın daşıyıcıları Albaniyanın müxtəlif yerlərində məskunlaşmışdılar. Bu barədə biz yuxarıda danışdığımız üçün təkrar olaraq bu məsələyə qayıtmırıq. Göründüyü kimi

qədim qaynaqlarda alban adı həm Albaniyanın ümumi əhalisinin adı kimi, həm də ayrıca bir tayfa kimi işlədilir. Tarixi faktdır ki, Albaniyada müxtəlif tayfalar yaşamışdır. Bu baxımdan ölkə əhalisinin yalnız alban tayfasından ibarət olmasını demək yanlış olardı. Görünür bəzi qaynaqlarda "alban" etnoniminin bütün ölkənin əhalisinin adı kimi xatırlanması, alban tayfasının başında dayandığı alban tayfa ittifaqının və dövlətinin yaranmasının nəticəsi olmuşdur.

Tarix ədəbiyyatında "alban" və "Albaniya" sözünün mənşəyi də müzakirə mövzusu olmuşdur. Qeyd edək ki, hələ antik müəlliflər də bu sözlərin mənşəyini aydınlaşdırmağa cəhd göstərmişdilər. Məsələn, Pompey Troq (e.ə. I – e. I əsri) alban etnoniminin mənşəyini İtaliyadakı Alban dağları ilə əlaqələndirirdi. Müəllif yazırdı: "....deyirlər ki, albanlar vaxtilə İtaliyadan, Alban dağlarından....Herkulesin ardınca gəlmişdilər. Mitridat müharibələri vaxtı öz italyan mənşəyini xatırlayan albanlar Pompeyin qoşunlarını qardaşcasına salamladılar" [1, 85]. "Alban" etnoniminin mənşəyini digər antik müəlliflər də izah etməyə cəhd göstərmişdilər. Qay Yuli Solin (III əsr) yazırdı ki, "Özlərini Yazonun nəslindən hesab edən albanlar ağ saçlı doğulurlar və ağ saç onlarda yaxşı əlamət sayılır; buna görə də başın rəngi xalqın adına verilib. Onların göz bəbəkləri boz rəngdədir; buna görə də gecə gündüzdən yaxşı görürlər" [5, 276]. Oxşar fikrə İsiqon Nikeyliyə istinad edən Plinidə də rast gəlinir. O, yazır: "....Albaniyada boz mavi gözlü adamlar doğulur, uşaqlıqdan saçları ağarır və gecə gündüzdən yaxşı görürlər" [5, 187]. Latın dilində "ağ" sözü "albus" deməkdir. Çox ehtimal ki, bu müəlliflər "alban" etnoniminin mənasını bu sözə aparıb çıxarırdılar.

"Albaniya" adının mənşəyi haqqında elmi ədəbiyyatda da müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar (N.Y. Marr, A, Yanovski, Z.İ. Yampolski və digərləri) hesab edip ki, bu söz latın mənşəlidir, mənası "Dağlıq ölkə" deməkdir [17, 60].

Plinidə xatırladılan Alban çayını [5, 184] Alazan çayı ilə eyniləşdirən A. Yanovski [28, 109] və S.T. Yeremyan [20, 303] hesab edirdilər ki, alban etnonimi və Albaniya ölkəsinin adı Alban çayının adından götürülüb.

Göründüyü kimi tarix ədəbiyyatında bu problemə yanaşmalar müxtəlifdir Albaniya, albanlar, Alban çayı, Albana şəhəri və Alban dənizi. Ölkənin, xalqın, çayın, şəhərin və dənizin bir hissəsinə verilən bu adın mənası nə idi? Bu adların biri digərindən törəmişdirmi? Törəmişdirsə hansından? Əgər belədirsə digər adların törədiyi ilkin adın mənşəyi hara gedib çıxır və mənası nədir? Göründüyü kimi suallar və bu suallardan yaranan mübahisələr kifayət qədər çoxdur.Bu mübahisələr isə bundan sonra da davam edəcək.

Alban etnoniminin etnik mənşəyi də uzunsürən diskussiyaların mövzusu olmuşdur. Yazılı mənbələrdə bu haqda heç bir məlumat yoxdur. Təəssüf ki, bu suala arxeoloji materiallar da cavab verə bilmir. Tarix ədəbiyyatında albanların, hətta bütün Albaniya əhalisinin ya iranmənşəli, ya da qafqazmənşəli olması fikri geniş yayılmışdır. Albanları qafqazmənşəli hesab edən konsepsiyanın tərəfdarları Q.A. Melikişvili [23, 124], A.Q. Şanidze [27, 37], İ.M. Dyakonov [18, 23] İ. H. Əliyev [9, 67], Q.A. Klimov [22, 97] A.P. Novoseltsev [24, 39] və digərləridir. Amma tarixi qaynaqlarda albanların iranmənşəli və ya qafqazmənşəli olmaları haqqında məlumat yoxdur. Nə iranmənşəli, nə də qafqazmənşəli xalqlar içərisində albanların adını daşıyan topluma rast gəlinməyib. Bu adı daşıyan toplumlar yalnız türk xalqları: qazaxların [15, 253; 16, 46], qırğızların [8, 66], özbəklərin [21, 16] və türkmənlərin

[10] içərisində XIX əsrdə qeydə alınmışdır. V.V. Vostrov, M.S. Mukanov yazırdı ki, qazaxlar arasında ən qədim tayfalar matay və alban hesab edilir [16, 46].

Albanlarla iranmənşəli, qafqazmənşəli və yaxın Şərq tayfaları arasındakı əlaqəyə qarşı çıxan K. Əliyev yazır: "Onlar (albanlar) tayfa, yaxud tayfa birliyi kimi nə şumer, elam və urartu, nə də ki, müasir Qafqaz yaxud İranın aborigen əhalisi arasında xatırlanmır....əgər alban adı yazılı mənbələrdə e.ə. I əsrdə çəkilirsə və əgər bu etnonim Yaxın Şərq etnonimlərinə oxşamırsa, onda analogiyanı Qafqazın sərhədlərindən kənarda axtarmaq lazımdır. Həqiqətən də Xəzər dənizindən şərqdəki etnonimlərə diqqət yetirsək, asanlıqla etnonimik dəlillər tapmaq olar. Bu adların sırasına qazax, özbək, türkmən və digər tayfalar arasında rast gəlinən alban etnonimi də aiddir" [12, 131]. K. Əliyev alban etnonimi ilə Orta və Mərkəzi Asiya etnonimlərinin eyni olmasını türk tayfalarının şərqdən qərbə doğru hərəkət etmələri ilə əlaqəli olduğunu bildirirdi [11, 161]. Müəllifin fikrindən belə bir nəticə çıxır ki, albanlar türk toplumu olublar və Azərbaycan ərazisinə təxminən e. ə. II – I əsrdə şərqdən, daha dəqiqi desək Orta və Mərkəzi Asiyadan gəliblər.

Oxşar fikrə S. Əliyarlı da toxunur. Beləki, müəllif, albanların Qafqaza gəlmə olduqlarını bildirərək yazırdı: "Alban adını daşıyan etnos tarixi qaynaqlar üzrə Transqafqaza saka tayfaları içərisində gəlmişdir" [19, 170]. Albanların gəlmə olduqlarını demək əsası olmayan bir fikirdir, çünki bu tayfaların Albaniya ərazisinə gəlmə olmaları haqqında heç bir qaynaq-nə yazılı nə də arxeoloji qaynaqlar məlumat vermir. O ki, qaldı bu tayfanın Mərkəzi və Orta Asiyada analogiyasını tapmasına ola bilsin ki, bu əksinə, albanların Cənubi Qafqazdan bəhs edilən ərazilərə hərəkət etmələri ilə bağlı olmuşdur.

## SONUÇ

Albanlar mənşəcə kim olublar? Türkmənşəli, iranmənşəli və ya qafqazmənşəli? Göründüyü kimi yanaşmalar müxtəlifdir. Amma əvvəldə də qeyd etdiyimiz kimi qafqaz və ya iranmənşəli toplumlar arasında alban adını daşıyan etnosa rast gəlinməyib. Əksinə, bu adı daşıyan toplumlar türk xalqları arasında qeydə alınmışdır. Fikrimizcə bu fakt özlüyündə alban etnoniminin türkmənşəli olmasını deməyəəsas verən və mübahisələrə son qoyan olduqca tutarlı dəlildir.

## ƏDƏBIYYAT

Алиев К.Г. Античные источники по истории Азербайджане. Баку: Элм, 1987, 132 с.

Алиев К.Г. Писатели античности об Азербайджане. Санкт–Петербург-Баку: Улу,2001, 164 с.

Абрамзон С.М. Этнический состав населения Северной Киргизы. Труды Киргизской археологической – этнографической экспедиции, вып. ЫВ, М.: 1960.

Алиев И.Г. История Мидии. Баку: АН Азерб. ССР, 1969. 360 с.

Алиев К.Г. Историческая топонимика // Изв. АН Азерб. ССР (серия истории, философии и права), 1969, 4. с. 119 - 123.

Алиев К.Г. Переселение древние тюрки на Южном Кавказе. Новая Турция, Анкара 2002, с. 158 – 162(на турец. яз.)

Алиев К. Г. Языки первых цивилизаций // Изв. АН Азерб. ССР (серия истории, философии и права ), 1968, № 2. с. 129 - 131.

Бабаев И.А.К вопросу о возникновении государства Албании (кавказской) // Изв. АН Азерб. ССР, серия истории, философии и права, 1976, № 4. с. 40 - 51.

Бартольд В.В. Место Прикаспийских Областей в истории мусульманского мира. Баку: 1925, с. 5 - 150.

Валиханов Ч. Ч. Избранные произведения.Алма – Ата: Изд – во Наука, 1986, 414 с.

Востров В. В., Муканов М. С. Родоплеменной состав и расселение казаков. Алма – Ата: 1968

Гейбуллаев Г.А. К Этногенезу Азербайджанцев, т. 1. Баку: Элм, 1991, 552 с.

Дьяконов И.М.Языки древней передней Азии. М.: Наука, 1967, 492 с.

История Азербайджана, Под. ред. С. Алиярова, Баку: Азербайджан, 1996, 872 с. (на азерб.яз.)

История СССР (с древнейших времен об образовании древнерусского государства). Изд - во АН ССР М.: Изд - во АН ССР, 1939. 531 с.

Кармышева Б.Х. Узбеки¬¬¬ локайцы Южного Таджиктсана. Вып. 1 Сталинабад: Изд – ва Акад. наук Таджик. ССР, 1954, 169 с.

Климов Г. А. Кавказские языки. М.: Наука, 1965, 102 с.

Киракос Гандзакеци. История. Тифлис: 1909, 420 с.

Латышев В.В. Известия древних писателей о Скифии и Кавказе: В 2-х томах. Т. 1, греческие писатели, вып. 1, 2, 3. (Приложение к «запискам императорского русского археологического общества»). СПб: Типография Императорской Академии Наук, 1890 – 1900, 946 с.

Латышев В.В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе: В 2-х т. Т. 2, латинские писатели, вып. 1 –2. (Приложение к «запискам императорского русского археологического общества»). СПб: Типография Императорской Академии Наук, 1904 – 1906, 454.

Мовсес Каланкатваци. История Албании. Предисл., пер. и коммент. З.М. Буниятова. Баку: Элм, 1993, 269 с. (на азерб.яз.)

Меликишвили Г. А. К истории древней Грузии. Тбилиси: Изд – во АН Груз. ССР, 1959. 507 с.

Новосельцев А.П., Пашуто В.Т., Черепни Л.В. Пути развития феодализма (Закавказье, Средняя Азия, Русь, Прибалтика). М.: Наука, 1972, 338 с.

Очерки истории СССР. Кризис рабовладельческой системы и зарождение феодализма на территории СССР III – IX вв. ( отв. ред. Б. А. Рыбаков ), т. II. М.: АН ССР, 1958. 947 с.

Страбон. География в 17 книгах / Перевод, статья и комментарий Г. А. Стратановского. Л.: Наука, 1964, 941с.

Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в.н.э.- VII в.н.э.). М. - Л..: Изд – во АН ССР, 1959, 389 с.

Шанидзе А. Г. Новооткрытый алфавит кавказских албанцев и его значение для науки. Зв. ИЯИМК Груз. ФАН ССР, 1938, т. 4, с. 1 – 68.

Яновский А. О древней Кавказской Албании. ЖМНП, 1846. ч. 52. с. 97 – 136; 161 – 203.